Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 10(102)-22/2019 18.02.2019

**ALİ MƏHKƏMƏ**

**Azərbaycan Respublikası adından**
**Azərbaycan Respublikası Ali Məhkəməsi**
**Mülki Kollegiyasının**
**Q Ə R A R D A D İ**

**İş № 10(102)-22/2019 18 fevral 2019-cu il Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Əhmədova Mehparə Tofiq qızı (sədrlik edən və məruzəçi - hakim), Rüstəmov Əli Məhəmməd oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlundan ibarət tərkibdə, Əliyeva Tutu Nazim qızının katibliyi ilə,

Türkiyə Respublikasının Demre Asliye Hüquq Məhkəməsinin 26.08.2014-cü il tarixli qərarının Azərbaycan Respublikasının ərazisində tanınması barədə cavabdeh Kassator etibarnamə üzrə nümayəndəsi X1 ərizəsi üzrə işə baxaraq,

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Beynəlxalq Əməkdaşlıq İdarəsinin 11.12.2018-ci il tarixli 14/18-12555 nömrəli məktubu ilə Türkiyə Respublikasının Demre Asliye Hüquq Məhkəməsinin 26.08.2014-cü il tarixli qərarının Azərbaycan Respublikasının ərazisində tanınması barədə cavabdeh Kassator etibarnamə üzrə nümayəndəsi X1 ərizəsi və əlaqədar sənədlər aidiyyatı üzrə baxılması üçün Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərilmişdir.

Türkiyə Respublikasının Demre Asliye Hüquq Məhkəməsinin 26.08.2014-cü il tarixli 2014/128 (2014/128 əsas) nömrəli qərarı ilə iddiaçı cavabdeh Kassator qarşı "nikahın pozulması" tələbinə dair iddiası təmin edilmiş, 07.08.1989-cu il təvəllüdlü Elvira Hacıyeva ilə 02.06.1980-ci il təvəllüdlü Kassator arasında 15.12.2007-ci il tarixdə bağlanmış nikah pozulmuşdur. Qərar 16.10.2014-cü il tarixdə qanuni qüvvəyə minmişdir.

Cavabdeh Kassator etibarnamə üzrə nümayəndəsi X2 ərizə ilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə müraciət edərək, Türkiyə Respublikasının Demre Asliye Hüquq Məhkəməsinin 26.08.2014-cü il tarixli qərarının Azərbaycan Respublikasının tanınmasını xahiş etmişdir.

Xarici dövlətin məhkəmə qərarının tanınması barədə ərizəyə baxılmasının vaxtı və yeri barədə iddiaçı və cavabdehə lazımi qaydada xəbər verilmişdir. Lakin onlar məhkəmə iclasına gəlməmiş və gəlməmələrinin səbəbləri barədə məhkəməyə məlumat verməmişlər.

Məhkəmə kollegiyası, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 467.2-ci maddəsinə əsasən işə məhkəmə iclasına gəlməyən şəxslərin iştirakı olmadan baxılmasını mümkün hesab edir.

Azərbaycan Respublikası MPM-in 462-ci maddəsinə əsasən xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qətnamələri Azərbaycan Respublikasının qanunvericiliyinə, hüquq qaydasına zidd deyildirsə və qarşılıqlı təminatlandırılmışdırsa, Azərbaycan Respublikasında icra edilə və tanına bilər.

Həmin Məcəllənin 464-cü maddəsinə əsasən xarici dövlət məhkəmələri və arbitrajlarının qətnamələrinin məcburi qaydada icra olunması və tanınması barədə ərizələrə Azərbaycan Respublikasının Ali Məhkəməsi baxır.

Həmin Məcəllənin 470.1-ci maddəsinə əsasən əgər xarici dövlətin məhkəmə qətnaməsi ilə nikah pozulmuşsa, etibarlı və yaxud etibarsız hesab edilmişsə, bu qətnamənin icra edilməsi üçün onun Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən tanınması tələb olunur. Bu halda tanınma xarici dövlətin qarşılıqlı təminatından asılı deyildir.

Məhkəmə kollegiyası, sədrlik edənin məruzəsini dinləyib, ərizəni və ona əlavə edilmiş sənədləri araşdıraraq hesab edir ki, Azərbaycan Respublikası MPM-in 470.1-ci maddəsinin tələbinə uyğun olaraq tərəflər arasında bağlanmış nikahın pozulması barədə xarici dövlətin məhkəmə qərarı icra edilməsi üçün Azərbaycan Respublikasında tanınmalıdır.

Qeyd edilənlərə əsasən və Azərbaycan Respublikası MPM-in 462-464, 467-468, 470-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**QƏRARA ALDİ:**

Ərizə təmin edilsin.

07.08.1989-cu il təvəllüdlü iddiaçı ilə 02.06.1980-ci il təvəllüdlü Kassator arasında 15.12.2007-ci il tarixdə bağlanmış nikahın pozulmasına dair Türkiyə Respublikasının Demre Asliye Hüquq Məhkəməsinin 26.08.2014-cü il tarixli 2014/128 (2014/128 əsas) nömrəli qərarı Azərbaycan Respublikasında tanınsın.

Qərardad qəbul edildiyi andan qüvvəyə minir.

Sədrlik edən:
Hakimlər:
Əsli ilə düzdür
Ali Məhkəmənin hakimi Mehparə Əhmədova